Sivilizasiya,
Bakı Avrasiya Universiteti
Cild 14, № 5, 2025 (66)

**UOT 94**

# OSMANLI HAKİMİYYƏTİ DÖVRÜNDƏ SALMAS BÖLGƏSİ
## (*Osmanlı arxiv sənədləri əsasında*)

**Yaxşıxanım NƏSİROVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 29 sentyabr 2025; çapa qəbul edilmişdir: 8 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 29th of September, 2025; accepted: 8th of November, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *Osmanlı, Salmas, vergi dəftərləri, arxiv, sənəd*

**Giriş**

Azərbaycan tarixşünaslığının müəyyən dövrlərinin daha ətraflı tədqiqi üçün arxiv sənədlərinə mütəmadi olaraq müraciət olunması məlum bir faktdır. Azərbaycanın tarixinə dair siyasi, hərbi hadisələrin, ictimai-iqtisadi proseslərin araşdırılması və təhlili üçün vacib olan arxiv sənədlərimiz, demək olar ki, dövrümüzə qədər gəlib çatmamışdır. Bu mənada yeni mənbələrin axtarışı və tədqiqi həlli vacib olan məsələlərdən biri olmuşdur. Keçən əsrin sonlarından başlayaraq tariximizin orta əsrlər dövrünə, xüsusilə onun son dönəminə aid Osmanlı sənədlərinin tədqiqinin elmi dövriyyəyə daxil olması bu sahədə olan boşluqların tarixi faktlar əsasında zənginləşməsinə şərait yaratdı. Bu sənədlər arasında Azərbaycanın bir sıra ərazilərinin Osmanlı hakimiyyəti illərində olduğu dövrdə tərtib olunmuş tapu-təhrir dəftərləri (maliyyə-vergi sənədləri) xüsusilə qeyd edilməlidir.

**1. Azərbaycanda Osmanlı vergi siyasətinin tətbiqi**

Növbəti Osmanlı-Rusiya müharibəsindən sonra imzalanmış 1724-cü il İstanbul müqaviləsinin bağlanması nəticəsində Səfəvi dövlətinin torpaqları iki imperiyanın arasında bölüşdürüldü. Tarixi Azərbaycan torpaqları Təbriz, Marağa, Ərdəbil, Xoy, Urmiya və s. ilə yanaşı Naxçıvan, Gəncə-Qarabağ, İrəvan, Qazax və digər ərazilər Osmanlı hakimiyyətinin, Xəzəryanı ərazilər, Bakı, Dərbənd və s. şəhərlər isə Rusiya imperiyasının tərkibinə daxil edildi. Bu dövrdən etibarən ələ keçirilmiş ərazilərdə müvafiq olaraq yeni idarəçilik tədbirləri görülməyə başladı.

Osmanlı dövlətinin iqtisadi siyasətinə əsasən imperiyaya qatılmış yeni ərazilərdə Osmanlı qanunlarına uyğun olaraq inzibati idarəçilik prinsipləri həyata keçirilməli, iqtisadi məsələlər həll olunmalı idi. Bu məqsədlə həmin ərazilərə xüsusi vəzifə verilmiş məmurlar göndərilirdi. Yeni inzibati bölgü təsdiqləndikdən sonra iqtisadi məsələlərin həllində vacib sayılan tədbirlərdən biri kimi ərazidə yaşayan əhalinin siyahıyaalınması keçirilirdi. Bu işdə saraydan gəlmiş məmurlara yerli idarəçiliyə məxsus şəxslər (kəndxuda, darğa və s.) də kömək etməli idi. Əhali və bütün gəlir mənbələri siyahıya alındıqdan sonra tərtib olunan sənəd təsdiq olunmaq üçün saraya göndərilirdi. Sarayda müzakirə edildikdən sonra bir nüsxəsi orada qalmaqla digər nüsxə həmin ərazinin yerli idarəçiliyinə göndərilirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan əraziləri üçün tərtib olunmuş bu sənədlərin yalnız sarayda saxlanmış variantları mövcuddur. Ərazilərə göndərilmiş

* *tarix üzrə fəlsəfə doktoru, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail:* yaxshi.seli@bk.ru
https://doi.org/10.30546/25194011.2025.14.5.3039

ikinci nüsxə haqqında, təəssüf ki, əlimizdə məlumat yoxdur.

Əvvəlcə onu söyləmək lazımdır ki, müəyyən bir inzibati əraziyə aid hər cür statistik məlumatları əhatə edən siyahıyaalma – təhrir işləri Osmanlı dövlətinin təşkilatlanması və nizamla idarə edilməsində böyük rol oynayırdı və "geniş əraziyə yayılan Osmanlı dövlətinin mərkəziyyətçi idarə sisteminin zəruri bir gərəyi idi" (14, s. 217). Osmanlı iqtisadiyyatının əsas dayaqlarından olan vergilərin nizamlı şəkildə toplanması üçün əsas sənəd hesab edilən təhrir əraziyə uyğun olaraq istifadə və məqsədinə görə iki növ tərtib olunurdu: *müfəssəl və icmal dəftərlər.* Müfəssəl dəftərlərdə siyahıya alınan əhalinin adı, ata adı, daşıdığı vergi mükəlləfiyyəti, əkilib-becərilən torpaqların həcmi, ərazidən əldə olunan məhsul və vergiyə cəlb olunan digər sahələr və qarşılığında müvafiq vergi miqdarı əks olunurdu. İcmal dəftərində isə nahiyələrin adı, torpaq-timar sahiblərinin adları və əllərində olan ərazi, dövlətə məxsus torpaqlar, mövcud olan mülkiyyət formaları və s. göstərilirdi. Onu da nəzərə almaq lazımdır ki, icmal dəftər müfəssəl dəftərin əsasında hazırlanırdı.

## 2. Azərbaycan ərazilərinə dair Osmanlı təhrir dəftərləri

Keçən əsrin sonlarından etibarən Azərbaycan ərazilərinə – Naxçıvan, Gəncə-Qarabağ, Qazax, həmçinin tarixi torpaqlarımız olan İrəvan, Təbriz, Ərdəbil, Marağa, Urmiya, Salmas və s. bölgələrə dair Osmanlı arxiv sənədləri tədqiq olundu və elmi dövriyyəyə təqdim olundu.[1] Məqalə bu sənədlərdən biri "Dəftər-i müfəssəl-i liva-i Halhal və liva-i Urumi"nin[2] məlumatları əsasında yazılmışdır. Bu sənəd Urmiya, Xalxal və Salmas əraziləri Osmanlı hakimiyyəti altına keçdikdən sonra 1726-1728-ci illərə aid statistik məlumatları əhatə etmişdir. Türkiyə Cümhuriyyəti "Cümhurbaşkanlığı Dövlət Arşivləri Başkanlığı" nəzdində Osmanlı Arxivində 910 sayı ilə qeydə alınmış sənəd 409 əlyazma səhifəsindən ibarətdir və dövlət maliyyə-vergi sənədləşməsində ənənəvi sayılan siyaqət xətti ilə yazılmışdır (1).

Əvvəldə qeyd etdiyimiz kimi, "Müfəssəl dəftər"in adında yazılmasa da, sənəddə Urmiya, Xalxal bölgələrinə aid məlumatlarla yanaşı, Salmasa aid statistik göstəricilər də əks olunmuşdur. Osmanlı hakimiyyəti dövründə inzibati-idari bölgüsünə əsasən Urmiya, Xalxal liva/sancaq, Salmas isə qəza statusunda müəyyən edilmişdir. Urmiya livası 7 nahiyə və bir şəhər mərkəzindən, Xalxal livası 5 nahiyədən, Salmas qəzası isə 4 nahiyə və bir şəhər mərkəzindən təşkil olunmuşdur (1, s. 2-3). Xatırladaq ki, hal-hazırda Salmasın şimal-şərq sərhədlərində Urmiya gölü, cənub-qərb tərəfində Xoy şəhəri, qərbində Türkiyə Respublikası, cənubunda isə Urmiya şəhəri yerləşir. Dəniz səviyyəsindən 1430 m yüksəklikdə mövqe tutan Salmas müasir İran İslam Respublikasının inkişaf etmiş bölgələrindən biri olub 2 şəhristan[3], bir bəxş[4] və 8 dəhestandan[5] ibarətdir (10, s. 42).

---

[1] İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996; Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı).Tərcümə edənlər Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001; Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Şuşa, 2000; 1595-ci il tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri. Bakı: "BİROL GROUP" MMC, 2022; Tiflis əyalətinin müfəssəl dəftəri: Borçalı və Qazax (1728). Ön söz, tərcümə vəşərhlərin müəllifi Şahin Mustafayev. 2-ci təkmilləşdirilmiş nəşr. Bakı: "Elm", 2022, 352 s.; Lori vilayətinin icmal dəftəri. Ön söz, mətnin tərtibi, tərcümə və qeydlərin müəllifi, tarix elmləri namizədi Şahin Mustafayev. Bakı: Nurlan, 2004; Təbriz livasının müfəssəl dəftəri. Birinci cild. On söz, tərcümə və şərhərin müəllifi akademik Şahin Mustafayev. Bakı, BDU nəşr evi, 2024; Təbriz livasının müfəssəl dəftəri. Birinci cild. On söz, tərcümə və şərhərin müəllifi akademik Şahin Mustafayev. Bakı, BDU nəşr evi, 2024; 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri. (translit. Tərcümə, giriş və şərhlərin müəllifi Fərəh Hüseyn). Bakı, "İdeal-Print" MMC, 2021; Qafqazlı G. Osmanlı hakimiyyəti dövründə Marağa və Soyuqbulaq bölgələri (XVIII əsrin 20-ci illəri). Bakı, 2021; NəsirovaY. Osmanlı hakimiyyəti dövründə Urmiya və Xalxal bölgələri (XVIII əsrin 20-ci illəri). Bakı, 2021.

[2] Qısa olaraq: "Müfəssəl dəftər"

[3] İran inzibati quruluşuna görə ostanln (vilayətin) daxilində olan inzibati bölgü vahidi.

[4] İran şəhristanının daxilində inzibati ərazi vahidi

Qeyd etdiyimiz kimi, Osmanlı hakimiyyəti dövrü Azərbaycan ərazilərində fəthdən əvvəlki Səfəvi idarəçiliyi illərində mövcud olmuş əyalət/bəylərbəyilik prinsipi saxlanmışdır. Əyalət bəylərbəyi (və ya mirmiran) tərəfindən idarə edilirdi (13, s. 83-85). Bəylərbəyilər öz ərazilərində hökmdarın nümayəndəsi hesab olunurdular və hərbi məsələlərin həllində iştirak edərək, ərazidə təhlükəsizliyi təmin etmək kimi vəzifələri yerinə yetirirdilər (13, s. 85). Osmanlı idarə üsulunda əyalətlər sancaqlara (və ya livalara) bölünürdü. Osmanlı idarəçiliyinə görə, sancaqların başında duran və sancaqda (və ya livada) ən səlahiyyətli şəxs sancaqbəyi hesab olunurdu. Hərbi və inzibati idarə işlərini əllərində cəmləşdirmiş və bu məsələlərlə əlaqədar əmrlər vermək hüququna malik olan sancaqbəyilər tabe olduqları bəylərbəyilərin göstərişlərini yerinə yetirirdilər.

Osmanlı mənbələrində Salmasın XVI-XVIII əsrə aid inzibati bölgüsü ilə bağlı müxtəlif məlumatlar vardır. Belə ki, XVI əsrə aid Osmanlı mənbələrində Salmasın Urmiya və Xoy sancaqları ilə birlikdə Təbrizə aid olduğu bildirilir və “xass-ı hümayun[6] üçün yararlı yerlər” olduğuna görə təhrir edilməsinin vacibliyi göstərilir (11, s. 54; 8). Beləliklə, məlum olur ki, Salmas XVI əsrdə Təbriz əyalətinin tərkibində sancaq (liva) statusunda olmuşdur. Lakin Azərbaycan əraziləri üçün tərtib olunan Osmanlı sənədləri arasında XVI əsrə aid Salmas üçün tərtib edilmiş təhrir dəftəri qeydə alınmamışdır. Ona görə də belə nəticəyə gəlmək olar ki, XVI əsr Osmanlı hakimiyyəti dönəmində Salmasa aid təhrir məlumatları Təbriz əyalətinin göstəricilərinə daxil edilmişdir. XVI əsrə aid digər Osmanlı sənədində “fəthdən 10 il keçməsinə baxmayaraq, Urmiya və Salmas sancaqlarının hələ də təhrir olunmadığı” qeyd edilmişdir (11, s. 36; 5). 1593-cü il tarixli hökmdə isə “Xoy və Salmas nahiyələrinin ayrı-ayrı sancaq olması uyğun görülmədiyi, bu səbəbdən hər ikisinin bir sancaq halında” təşkil olunması ilə bağlı məlumat verilmişdir (11, s. 51; 7). Beləliklə, XVI əsrə aid Osmanlı mənbələrində Salmas bölgəsinin müxtəlif statusa malik inzibati ərazi kimi qeyd olunduğunu görürük.

### 3. “Xalxal və Urmiya livalarının müfəssəl dəftəri”ndə Salmas qəzası

Ümumiyyətlə, müraciət etdiyimiz vergi sənədinin tərtib və struktur xüsusiyyətləri o dövrün təhrir dəftərləri ilə oxşardır. Daha dəqiq desək, haqqında danışılan müfəssəl dəftərin ilk səhifəsində siyahıyaalma işlərinə cəlb edilən bölgələrin – Urmiya, Xalxal livaları və Salmas qəzasına aid nahiyələrin fihristi[7] verilmişdir (1, s.1-3). Nahiyələrin fihristindən sonra sıralama ilə kəndlərin adları yazılmışdır. Bundan sonra növbə ilə nahiyəyə daxil olan kəndin adı və orada yaşayan və vergiyə cəlb edilən ailə başçılarının adı, atasının adı, aid olduğu vergi qrupu xüsusi işarə ilə qeyd olunmuşdur. Osmanlı məmurları vergiyə cəlb edilən şəxslərin fiziki cəhətdən sağlam (əqli cəhətdən qüsurlu, xəstə, qoca və uşaqlar vergidən azad idilər – Y.N.) və yetkin olmasına xüsusi fikir verirdilər.

Qeyd olunan vergi sənədində təhrir məlumatları verilmiş Salmas qəzası Osmanlı dövründə Salmas, Ənzəl, Qarabağ, Kürdqıran nahiyələri və “nəfs-i Salmas”dan (burada: Salmas şəhəri) təşkil olunmuşdur. “Nəfs-i” sözü ilə qeydə alınmış yaşayış məntəqəsinin şəhər və ya qəsəbə statusunda olması, eləcə də sözün anlamı haqqında Osmanlı mənbələrində dəqiq fikir bildirilməmişdir (4, s.79). F.Dəvəllioğlunun tərtib etdiyi “Osmanlıca lüğət”də “nəfs” sözünün yaşayış məskəninin adı ilə birlikdə işlənmiş formasının tərcüməsi “içi” kimi verilmişdir. Məsələn; “nəfs-i Ankara” – Ankaranın içi (12, s. 979). Qəzaya aid təhrir məlumatları müfəssəl dəftərin 358-409-cu səhifələrində əks olunmuşdur.

---

[5] İnzibati ərazi vahidi – qəsəbəyə uyğun gəlir

[6] Osmanlı dövlətində padşaha, xanədan üzvlərinə, yüksək vəzifəli şəxslərə aid olan şəxsi mülk, ərazi, illik gəlir və s. üçün istifadə olunan termin (15, s. 268-270).

[7] ərəbcə “fehrese” sözündəndir, burada mənası: mündəricat

Bu məlumatlara əsasən, Salmas qəzasının tərkibində 77 kənd, 1 məzrəə[8] və 1 məhəllə qeydə alınmışdır. Qəzanın ən böyük nahiyəsi Salmas nahiyəsi olmuşdur. Nahiyənin tərkibində 1 şəhər, 59 kənd və 1 məzrəə olduğu göstərilmişdir. Bu kəndlərdən 50-i məskun, 9-u isə qeyri-məskun kənd kimi qeyd edilmişdir. Qəzanın Ənzəl nahiyəsində 7 kənd, Qarabağ nahiyəsində isə bütün kəndlər (3 kənd) məskun olmuşdur. Əlavə edək ki, tarixi mənbələrdə Ənzəlin hələ XVII əsrin əvvəllərində Yəhya bəy və onun sülaləsi tərəfindən idarə olunması haqqında məlumatlar vardır (2, s. 71). Kürdqıran nahiyəsinin 8 kəndinin 4-ü məskun kənd kimi göstərilmişdir. Salmas qəzasının əhalisinin çox hissəsi 59 kənddən təşkil olunmuş eyniadlı nahiyədə yaşamışlar. Əhalinin yerləşmə xüsusiyyətinə görə nahiyənin məskun ərazi olduğunu söyləyə bilərik. Belə ki, ərazinin 50 kəndi məskun, cəmi 9-u boşlamış kənd kimi sənəddə qeyd olunmuşdur (1, s. 358-409). Bu göstəricilərə əsasən nahiyə əhalisinin oturaq həyat keçirdiyi qənaətinə gələ bilərik. Bu məlumatlar onu göstərir ki, Osmanlı hakimiyyəti dövründə baş vermiş qarşıdurmalara, regionda davam edən hərbi-siyasi proseslərə baxmayaraq, Salmas qəzasında demoqrafik vəziyyət nisbətən sabit olmuşdur.

Ümumi statistik məlumatlara əsasən, Salmas qəzasında 1642 nəfər şəxsin – ailə başçısının vergiyə cəlb olunduğu müəyyən edilmişdir. Osmanlı vergi toplama qaydalarına görə, qeyri-müsəlman əhali müsəlman əhalidən fərqli olaraq xüsusi vergi növü “ispəncə” ödəməli idi. Məhz bu fərqliliyə görə məlumatlarda qeyd olunmuş vergi ödəyən şəxslərin qeyri-müsəlman olmasını təyin etmək mümkündür. Nəticə olaraq, adı siyahıya salınmış 585 nəfər ailə başçısının qeyri-müsəlman olduğu məlum olmuşdur. Ümumi qəbul olunmuş standartlara əsasən hər ailəni təxminən 5 nəfərdən ibarət olduğunu qəbul etsək, qəzada təxminən 5 minə yaxın əhali yaşadığını söyləyə bilərik. Bu isə qəzanın əhalinin sayı baxımından geniş inzibati ərazi olduğunu göstərir.

Qəzada dini cəhətdən həm müsəlman, həm də qeyri-müsəlman yaşamışdır. Bəzən qəzanın bütöv bir kəndində qeyri-müsəlmanlar ayrı, bəzisində isə müsəlmanlarla yanaşı yaşamışlar. Qeyri-müsəlmanlar, əsasən Salmas nahiyəsində yaşamışdır. Dini cəhətdən müsəlman və qeyri-müsəlman tərkibli əhalisi olan Salmasda, həmçinin “gəbran” (gavr/kafir) adlandırılan bir qrup əhali də yaşamışdır. Onu da qeyd edək ki, “gəbranlar” Urmiya livasında da yaşamışlar. “Gəbran” əhali qeyri-müsəlman olaraq dövlət xəzinəsinə “ispəncə” vergisi ödəyirdilər. “Gəbranlar”ın əslində kim olduqları haqqında müxtəlif fikirlər mövcuddur. Bəziləri onların Zərdüştün davamçıları olduqlarına görə “gəbr” adlandırıldıqlarını deyirdi (17, s.110). Osmanlı sənədlərində isə “gəbrlər” birmənalı şəkildə müsəlman olmayan şəxsləri ifadə etmişdir.

Ümumiyyətlə isə müfəssəl dəftərin məlumatları qəza əhalisinin ⅔ hissəsinin dini cəhətdən müsəlman olmasını deməyə əsas verir.

Osmanlı hakimiyyəti dövründə qəzanın tərkibində bir mərkəz-şəhər olmuş və mərkəz müfəssəl dəftərdə “nəfs-i Salmas” kimi qeyd olunmuşdur. Tarixə nəzər saldıqda görürük ki, XIV əsr tarixçi və coğrafiyaşünası Həmdullah Qəzviniyə görə, böyük bir şəhər olan Salmasda çoxlu meyvə bağlarının olmuşdur (18, s. 47). Həmçinin Salmasda buğda, arpa və başqa dənli bitkilər əkilmişdir. Mənbələrdə Salmasda cüzam xəstəliyi üçün müalicəvi suyun olması haqqında məlumatlar da vardır (6, s. 12; 9, s. 335).

XVIII əsrin əvvəlləri qeyd edilən bölgədə uzun müddətli müharibələrin baş verdiyi, dağıntıların, köçlərin olduğu dövrə təsadüf edir. Tarixçilər bu hadisələr nəticəsində Salmas əhalisinin canlarını, mallarını götürərək yaşayış yerlərini tərk etmək məcburiyyətində qaldığını yazırdılar (3, s. 69-72). H.Ə.Dəlili Salmas şəhərinin Təbrizin qərbində yerləşdiyini yazmış və xarici təcavüzlərə qarşı şəhərin möhkəm qala divarlarının olduğunu qeyd etmişdir (2, s. 37).

[8] əhalisi olmayan, əkinçilik və heyvandarlıq üçün istifadə edilən kəndə aid və ya ondan ayrı kiçik torpaq sahələri: (16, s. 546-548)

Müfəssəl dəftərdə verilmiş statistik məlumatlar əsasında ölkə daxilində baş verən demoqrafik dəyişiklikləri də izləmək mümkündür. Belə dəyişikliklərin əsasını daha çox kənd təsərrüfatında çalışan əhalinin "köçlər" və "köçürmələr" nəticəsində sayının mexaniki artımı və ya azalması təşkil edirdi. Məhz dəftərin məlumatlarının təhlili bölgədə cərəyan edən proseslərin daha dəqiq izlənməsinə və demoqrafik dəyişikliklərin xüsusiyyətlərinin müəyyən edilməsinə şərait yaratmışdır. Məlumatların araşdırılması onu deməyə əsas verir ki, XVIII əsrin əvvəllərində Salmasın əhalisinin sayca kiçik bir hissəsi yaşayış yerini tərk edib getmişdir. Belə ki, Salmasda boşalmış kəndlərin sayının az olması ərazidə demoqrafik vəziyyətin nisbətən sabit olduğunu deməyə əsas verir.

Müfəssəl dəftərlərin unikal xüsusiyyətlərindən biri də budur ki, zahirən adi görünən statistik məlumatlar aid olduğu dövrdə bölgənin əhalisi, məişəti, təsərrüfat münasibətləri, iqtisadi göstəriciləri, sosial həyatı haqqında dolğun və konkret təsəvvürlər yaratmağa imkan verir. Bu cəhətdən sənəd araşdırılarkən XVIII əsrin əvvəllərində Salmas qəzasının əhalisinin əsasən əkinçiliklə məşğul olduğu qənaətinə gəlmiş oluruq. Əhali əkib-becərdiyi torpaq və məhsulun satışından əldə etdiyi gəlirə görə müxtəlif vergilər ödəmişdir. Belə ki, təsərrüfatla məşğul olduqlarına və yetişdirdikləri məhsula görə "xüms-i ğəllat" və "üşr" vergilərini ödəməli idilər. Qəzanın nahiyələrindən Salmas qəzası həm əhalisinə, həm də əhatə etdiyi əraziyə görə digər nahiyələrdə böyük olmuşdur. Qəzanın torpaqlarında hər növ dənli (arpa, buğda, darı), paxlalı (mərci, noxud, kətan toxumu və s.) və texniki (pambıq, çəltik) bitkilər əkilib-becərilmişdir. Torpağa görə "cift[9]", "nim çift[10]", "bennak[11]", "mücərrəd[12]", "caba[13]", toplanmış arpa, buğda və s. dənli bitkilərdən əldə etdiyi gəlirə əsasən "xüms"[14], pambıq və digər texniki bitkilərə görə "üşr"[15] vergisi ödəmişlər. Salmasa aid vergilər arasında digər nahiyə və livalarda əkilməyən "üşr-i sirü piyaz" (sarımsaq və soğan vergisi) vergisi diqqət çəkir. Bu vergi növünə yalnız Salmasa aid vergi məlumatlarında rast gəlindiyinə görə həmin bitkinin bu ərazilərdə geniş şəkildə əkilməsi və yüksək gəlir gətirməsini söyləmək mümkündür. "Bağ-bostan məhsullarının becərilməsi üçün əlverişli və mülayim iqlimin olması Salmasda geniş meyvə bağlarının olması, müxtəlif çeşidli bostan məhsullarının əkilməsinə münbit şərait yaratmışdır (2, s. 37). Əhali meyvə, bağ-bostan məhsullarından əldə etdikləri gəlirə görə "üşr-i meyvə" (meyvə vergisi), "üşr-i bağat" (bağ vergisi), "üşr-i bostan" (bostan vergisi), "üşr-i biyan" (biyan vergisi) kimi müxtəlif vergilər ödəməli idilər. Bununla yanaşı, arıçılığın geniş yayıldığı bu ərazilərdə müvafiq "rəsm-i küvvarə" (pətək vergisi) də təyin olunmuşdur. Vergi təyin olunarkən balın çəkisi deyil, pətəklərin sayı nəzərə alınırdı.

**Nəticə**

Ümumiyyətlə, "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"ndə əks olunmuş zəngin məlumatlar XVIII əsrin əvvəllərində Azərbaycanın bu bölgəsində əkinçiliyin vəziyyəti, torpaqların məhsuldarlığı, əhalinin sosial həyatı, dini-etnik tərkibi haqqında təsəvvürlərin yaranması baxımından dəyərli və əhəmiyyətlidir. Xüsusilə, Azərbaycanın orta əsr tarixinin, həmçinin o dövrün sosial-iqtisadi proseslərinin öyrənilməsi baxımından tarix, coğrafiya, etnoqrafiya, dilçilik, demoqrafiya, təsərrüfat münasibətləri, dini təsisatlar, vergi sistemi sahələrinin daha ətraflı araşdırılması üçün Osmanlı təhrir dəftərlə-

[9] Kəndlinin əkin üçün istifadə etdiyi, 50-160 dönüm (1 dönüm 919,3 kv.m-ə bərabərdir) torpaq sahəsi. Müəssəl dəftərdə bu ölçü 70 dönüm olaraq hesablanmışdır.
[10] Bir cift torpağın yarısı
[11] Bir çiftdən az olan torpaq sahəsi
[12] Torpağı olmayan, atasına məxsus ərazidə işləyən subay kəndli.
[13] Torpaqsız kəndli
[14] ərəbcə sözdür, "beşdə bir" deməkdir. Dənli bitkilərdən alınan gəlir vergisi.
[15] ərəbcə sözdür, "onda bir" deməkdir. Rəiyyətdən alınan gəlir vergisi.

ri əvəzsiz informasiya mənbəyidir. Müəyyən edilən nəticələr görə, XVIII əsrin əvvəllərində Salmas qəzası əhalisinin sayına görə geniş bir ərazini əhatə etmişdir. Təxmini hesablamalara görə, qəzanın 5 minə yaxın əhalisi təsərrüfatlarında əkinçilik, heyvandarlıq, arıçılıq və digər sahələrlə məşğul olmuş, əldə etdikləri gəlirin müəyyən hissəsini vergi olaraq dövlət xəzinəsinə ödəmişlər.

## ƏDƏBİYYAT


1. Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi. İstanbul: Başbakanlık Osmanlı Arşivi/ Tapu-təhrir dəftərləri, №910, 409 s.
2. Dəlili H.. Azərbaycan cənub xanlıqları. Bakı: Elm, 1979, 144 s.
3. Əhrvanlı R. Salmasın əski mədəniyyət izləri. Salmas: Pərvaz qələm, 1385, 113 s.
4. Ərdəbil livasının müfəssəl dəftəri. Araşdırmanın, transliterasiyanın müəllifi E.Arıklı). Bakı: Nurlan, 2004, 857 s.
5. Ərdəbil Şeyx Səfiəddin-i Ərdəbili Vəqfi dəftəri. İstanbul: Başbakanlık Osmanlı Arşivi/ Tapu-təhrir dəftərləri, №896, 2023 s.
6. Gafuriniya A.. Mecmue-yi makalat-i der mured Selmas. Gum, 1395.
7. İstanbul Başbakanlık Osmanlı Arşivi/ Mühimmə dəftəri, №70, hökm 382.
8. İstanbul Başbakanlık Osmanlı Arşivi/ Mühimmə dəftəri, №62, hökm 27, 28.
9. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı: Elm və təhsil, 2016, 408 s.
10. Zəndədil Həsən və əməkdaşları. Ostani-Azərbaycani-Qərbi. Təbriz: Nəşriyye-i İrangərdi, 1377, 143 s.
11. Bilgili A. Osmanlı, İran ve Azerbaycan – I. (16. ve 18. Yüzyıllar Sosyal ve Ekonomik Tarih). Erzurum: Zafer, 2004, 300 s.
12. Devellioğlu F. Osmanlıca-Türkçe Ansiklopedik Lüğat. Ankara: Doğuş, 1962, 1440 s.
13. Halaçoğlu Y. XIV-XVII Yüzyıllarda Osmanlılarda Devlet Teşkilatı ve Sosyal Yapı. Ankara: TTK Basımevi, 1998, 258 s.
14. İnalcık H. Devlet-i ʹAliyye. Osmanlı İmparatorluğu Üzerine Araştırmalar – 1. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2009, 377 s.
15. Orhonlu C., Göyünç, N. Has. İslam Ansiklopedisi, İstanbul: TDV Yayınları, c.16, 1997, s. 268-270.
16. Şahin İ. Mezraa. İslam Ansiklopedisi, Ankara: TDV Yayınları, c. 29, 2004, s. 546-548.
17. Газлифт-Гоголево. Большая Советская Энциклопедия, в 30 т., Том 6. Москва: Советская энциклопедия, 1971, 624 с.
18. Йакут ал-Хамави. Мюджам ал-булдан. Хамдаллах Газвини. Нузхат-ал кулуб (материалы по Азербайджану, пер.З.М.Буниятова). Баку: Элм, 1983, 65 с.



***Резюме***

***Яхшиханум Насирова***

***Салмас в годы Османского правления***
***(на основании Османских архивных документов)***

Недостаток источников, с которым мы сталкиваемся при изучении ряда вопросов нашей истории, заставляет нас обращаться к архивным документам других стран для более подробного исследования общественно-политических событий того периода. В этой связи документы, хранящиеся в Государственном архиве Турецкой Республики и относящиеся к средневековому периоду истории Азербайджана, имеют исключительное значение. В частности, реестры тапу-тахрир (налоговые реестры) XVI и начала XVIII веков, хранящиеся в Османском архиве, представляют большую ценность с точки зрения выявления новых фактов для формирования нового взгляда на военно-политические события и социально-экономические процессы, происходившие в исследуемом периоде. В статье рассматривается документ «Пространный реестр ливы Халхал и ливы Уруми» – османский налоговый реестр, который содержит записи о социально-экономических вопросах региона Салмас,

находившегося под османским владычеством около 10 лет, начиная с 20-х годов XVIII века. На основе документа, отражающего статистические показатели, изучена налоговая политика Османской империи, проводившаяся в регионе Салмас в тот период, и ряд вытекающих из неё административных вопросов, аграрные отношения и т. д. Хотя в названии данного документа от 1728 года этого не указано, однако представленная информация охватывала также и регион Салмас в дополнение к регионам Халхал и Урмия. Было установлено, что в период османского владычества округ Салмас состоял из четырех нахийе (районов – Я.Н.) и одного районного центра. При анализе показателей пространного реестра были получены важные результаты, касающиеся религиозного и этнического состава населения, а также вытекающей из этого демографической картины региона. В ходе данного исследования определено административное деление региона Салмас в начале XVIII века, представлены новые сведения об общественной жизни населения, его образе жизни, сферах хозяйства, религиозных и этнических вопросах, а также торговых отношениях.

**Ключевые слова:** *Османский, Салмас, архив, документ, налоговый реестр*

***Summary***

***Yakhshikhanim Nasirova***

***Salmas region under Ottoman rule***
***(based on the Ottoman archival document)***

The insufficiency of sources we encounter during the study of a number of issues of our history, makes us turn to archival documents of other countries for a more detailed data on the socio-political events of that period. In this regard, the documents preserved in the State Archives of the Republic of Turkey and relating to the medieval period of Azerbaijani history are of utter significance. In particular, the tapu-tahrir registry books (tax books) of the $16^{th}$ and early $18^{th}$ centuries preserved in the Ottoman archives of the Prime Minister's Office are very valuable in terms of revealing new facts for the formation of a new perspective on the political-military events and socio-economic processes that occurred in that period. The article deals with the document "Comprehensive register of Liwa Khalkhal and Liwa Urumi", the Ottoman tax book which contains the records of the socio-economic issues in the Salmas region, which was under Ottoman rule for about 10 years, since 20s of the $18^{th}$ century. The Ottoman tax policy implemented in the Salmas region at that time and a number of administrative issues arising from it, agrarian relations, etc. were studied on the basis of the document reflecting statistical indicators, which allow to obtain unique and valuable results. The study determined the administrative division of the Salmas region at the beginning of the 18th century, new information was presented on the social life of the population, their lifestyle, fields of economy, religious and ethnic issues, as well as trade relations.

**Key words:** *Ottoman, Salmas, tax books, archive, document.*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Şükürov Kərim Kərəm oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.